# Kədərdən sevincə doğru gedən ömür karvanı



Mahir Həmidov

İnsan ömrünün elə bir mərhələsi var ki, o mərhələyə, o dövrə çatanadək həyata, dünyaya, insanlara münasibətdə artıq ən gözəl bir şəkildə öz mövqeyini bildirməyi, sözünü deməyi bacarmısansa, deməli, bir ömrü hədər yaşamamısan! Aldığı təhsilindən, çalışdığı peşəsindən asılı olmayaraq, ziyalı insanların əksəriyyəti zaman-zaman ürəyinin arzusunu, niyyətini, sevinc və kədərini ifadə etmək üçün bədii sözün qüdrətinə pənah aparıblar. Belə ziyalılarımızdan biri də alim və qələm sahibi, iqtisad üzrə elmlər doktoru Dünyamalı Vəliyevdir.

Dünyamalı Vəliyev "Kədər və sevinc: ömür karvanının yolçuları" (ədəbi-bədii esse) adlı kitabında, əziz oğlu Arifi 37 yaşında avtomobil qəzasında itirmiş müəllif öz acı dərdindən oxucusuna bəhs edir. Dünya yaranandan bugünədək bəşər tarixində əziz adamların ölümünün gətirdiyi dərd-qəmin, kədərin ömür yolunda həmişə insanla birgə addımladığından bəhs edir. Ən əsası isə, bu qədər dərd və iztirablara bərabər sevincin də varlığını unutmur, "ömür karvanının yolçuları" adlandırdığı kədər və sevincin hər bir insanın həyatında yeri olduğunu müxtəlif nümunələr gətirməklə oxucusuna xatırladır, İslam dininin ölüm barədə buyurduqlarından, Peyğəmbərimizin (s.a.s.) hədislərindən, Hz.Əlinin, Əhli-beytin bu haqda söylədikləri qiymətli kəlamlarından söz açır, bir sözlə, onunla eyni dərdə mübtəla olan insanlara mənəvi dəstək olmaq istəyir. Kitaba yazdığı "Ölüm yeni həyatın başlanğıcıdır" adlı ön sözdə yazır: "Mən bu iztirabda zəngin təcrübə qazandım və hisslərimi özüm kimilərlə bölüşmək istədim. Məqsədim onlara mənəvi dəstək verməkdir. Çünki mənim kimi insanlar çoxdur. Tez-tez vətənimizin müdafiəsində şəhid olan övladlarımızın acısı yüzlərlə valideynin, onların əzizlərinin kədərinə səbəb olur. Bəziləri bu dərdə dözə bilmədiyi üçün intihar edir və ya ağır xəstəlik tapırlar. Mənim məqsədim düşdüyünüz böhranlı vəziyyətdən çıxmaq üçün sizə yardımçı olmaqdır. Əgər buna nail olsam, özümü xoşbəxt hiss edərəm". Altı bölmədən ibarət bu dəyərli kitabın yalnız elə bölmə adlarına nəzər salmaqla, onun, həqiqətən, bugünümüz üçün əhəmiyyətinin şahidi oları: "Ölüm haqdır, çıxmaq olmaz əmrdən", "Kədər: təsəllim ahu-nalədir", "Səbr, səbr, yenə də səbr", "Həyat gözəldir", "Məhəbbət həyatdır" və nəhayət, "Oğlum yaşayır". Böyük mütəfəkkirlərin hikmətli sözlərindən, həm klassik, həm də müasir dövrün görkəmli şairlərinin ölüm və ayrılıq acısı barədə şeirlərindən nümunələr verilən bu kitab, adından, bölmə sərlövhələrindən də göründüyü kimi, sanki oxucusuna kədərdən sevincə, ölümdən həyata doğru bir yol olduğunu göstərməyə cəhd edir. Kitabın son bölümündə Dünyamalı Vəliyevin qələminin məhsulu olan şeirlər də diqqətəlayiqdir. Müəllif şeirlərini təqdim edərkən oxucusuna səmimi bir tərzdə üz tutub, "Mən iqtisadçıyam. lakin başıma bu fəlakət gələndən sonra öz qəmli hisslərimi şeir dili ilə ifadə etməyə çalışıram", - deyir.

Dünyamalı Vəliyevin 2013-cü ildə çapdan çıxan ikinci bir kitabı isə alimin doğma yurdu Borçalı mahalının Qasımlı kəndinə, doğma el-obanın dəyərli insanlarına, ziyalılarına həsr olunub. Alim tərtib etdiyi "Borçalı inciləri: Qasımlı (Ağaları, alimləri, aşıqları, şair və el şairləri)" adlı kitaba eloğlusu, şair-publisist Səyavuş Uyğunla birgə geniş "Ön söz" də yazmışdır. Kitabda onlarla Qasımlı aşığının, şair və el şairlərinin şeirləri içərisində Dünyamalı Əmiroğlunun (Vəliyevin) də qələmindən süzülən şeirlər yer alıb. "Zaman", "Arifim getdi", "Anlamadım, bu nədir", "Təkcə sən yoxsan, əziz qardaşım!", "Ağlama, anam!" və b. şeirlər lirik duyğuların sadə və səmimi ifadəsi ilə yadda qalır:

*Ey gəlimli, qoca dünya,*
*Bir gör, nələr edir zaman!*
*Ey gedimli, uca dünya,*
*Səni hara qovur zaman!*

*...Əmiroğlu köçən quşdu,*
*Hikmətindən hey bihuşdu,*
*Anlayırmı, niyə düşdü*
*Dünyaya, bu günə, zaman!*

***("Zaman")***

Dünyamalı Əmiroğlunun doğma yurda, o yurdun torpağına, daşına, dağına - Babakər dağına həsr etdiyi



şeir də bir vətən oğlunun yurd sevgisindən, iftixar duyğusundan qaynaqlanıb:

*Körpə gözlərimin ilk Himalayı,*
*Tarixlər kölgəsi, ay Babakərim!*
*Kövrək gəncliyimin Günəşi, Ayı*
*Səsini dünyaya yay, Babəkərim!*

***("Ay Babəkər!")***

"Şəhid anası!", "Kədərmi yaşlıdı, mənmi yaşlıyam?" adlı şeirləri, "Evlilik fəlsəfəsi", "Tale" adlı esseləri və başqa dəyərli yazılarının yer aldığı növbəti kitabı isə bu dəyərli ziyalının yubiley ərəfəsində əziz oxucularıyla yenidən görüşüdür.

Dünyamalı müəllimi tanıdığım illər ərzində ondan hər zaman qayğı və diqqət gördüm. Rəhbərlik etdiyi şöbədə gənc və istedadlı kadrlara verdiyi dəyər mənimçün qiymətlidir. Ürəyində Allah sevgisi olan, elmə, biliyə, qələm əhlinə qiymət verməyi bacaran insan haqqında yalnız xoş sözlər söyləmək olar. Ömrün müdriklik yaşında bu ağsaqqal alimimizə möhkəm can sağlığı, könül rahatlığı və elmi yaradıcılığında daha böyük uğurlar arzulayıram!



kaspi.-2017.-11-13 mart.-S.17.